# Tarixi şəxsiyyətə məxsus əlyazma

**Əlyazmalarda və salnamələrdə əks olunan tarix bizim üçün çox qiymətlidir, çünki o, xalqın tarixi keçmişini təsdiqləyir. Bu yazılı mənbələri qələmə alan insanlar keçmişin ən əlamətdar hadisələrini təsvir edib, bir daha onun sanki iştirakçısına çevrilirlər. İzlərini tarixdə həkk edirlər. Nadir əlyazmalar bizim tarixi keçmişimizi, əsrlər boyu cərəyan edən hadisələri əks etdirir. Belə əlyazmalar çoxdur və onlar tarixi şəxsiyyətlərin ömür yolu və ailələri ilə bağlıdır. Bu yazıda tarixi şəxsiyyətə məxsus olan bir əlyazmadan və orada yerləşən xatirə sözlərindən söhbət açmaq istəyirik.**







Kitab yazıçı, filosof, publisist Abbasqulu ağa Bakıxanovun ailəsinə məxsus olan Qurani-Kərimdir. Bu gün o, Milli İncəsənət Muzeyində saxlanılır. Bakıxanov şəxsiyyətindən danışarkən qeyd edək ki, o, ilk dəfə öz xalqına onun tarixini yazıb qoymuşdur və belə bir ifadə işlətmişdir: “ O xalq ki, öz tarixini bilir tarixini bilməyəndən bir pillə yuxarıdır”.

Onun yaşadığı dövrdə Şərq ədəbiyyatı və başqa ilkin mənbələrlə işləmək böyük hazırlıq tələb edirdi. Abbasqulu ağa böyük maraq və səbrlə həmin mənbələri əldə edir, oradakı çoxlarına bəlli olmayan məlumatları tapıb oxuyur, tərcümə edirdi. Abbasqulu ağa bu mənbələrdən öz əsərlərində istifadə edirdi.

“Gülüstani-İrəm” əsərində o, Şərqi Qafqazın tarixini və ənənələrini əks etdirmişdir. Əsərlə tanış olmaq üçün əlyazma çar I Nikolaya təqdim olunmuşdur. İmperator əsəri yüksək qiymətləndirmiş, müəllifi 800 rubl gümüş pul və brilyant üzüklə mükafatlandırmışdır.

Abbasqulu ağa Bakı xanlarının nəslindən idi, II Mirzə Məhəmməd xanın oğlu idi. Rus ordusunun zabiti ikən ziyalı təbəqəsindən olan, yüksək dairələrdə tanınan adamlarla yaxından tanış olmuşdu. Rus şairi A.S.Puşkinin ailəsi onu maraqlı insan və çox məlumatlı həmsöhbət adlandırmışdı.

Onun elm üçün gördüyü işlər Qafqaz tədqiqatçıları Xanıkov və Boqomolov tərəfindən yüksək qiymətləndirilmişdir. Rus ordusunda qulluq edərkən diplomatik fəaliyyətinə görə 2-ci dərəcəli “Müqəddəs Anna” və “Müqəddəs Vladimir” ordenləri ilə təltif edilmişdir. Fars və ərəb dillərini mükəmməl bildiyi üçün Bakıxanov 1828-ci ildə Türkmənçay müqaviləsinin bağlanmasında iştirak etmişdir.

Bu gün bizim arxiv və muzeylərimizdə dahi insanlara məxsus kitab və əlyazmalar saxlanılır və həmin mənbələr öz tədqiqatçılarını gözləyir. Bu sənədlər bizim tariximizə aid qaranlıq məqamları açıqlaya, müəyyən ictimai fikrin formalaşmasına səbəb ola bilər.

Abbasqulu ağa Bakıxanovun ailəsinə məxsus olmuş Qurani-Kərim XVI əsrdə 897 h (1492) ildə Hüseyn Vaiz Kaşifi tərəfindən köçürülmüşdür və “Təfsiri Kaşifi”, yəni Quranın təfsiri adlanır. Ölçüsü təxminən 30x20 santimetrdir, üzərinə dəri çəkilmiş, vərəqlərə rəng və qızıl suyu ilə işləmələr verilmişdir. Kitabın arxa tərəfində, içəridə dairəvi möhür vurulmuşdur. Kitab muzeyin Azərbaycan incəsənəti bölməsində numayiş olunur. 2008-ci ildə aparılan tədqiqatlar nəticəsində məlum olmuşdur ki, bu möhür A.Bakıxanovun şəxsi möhürüdür. Möhürün içərisində “Allahdan başqa Allah yoxdur, Allahın qulu Abbasqulu” sözləri qeyd olunmuşdur. Möhürün alt hissəsində qara mürəkkəblə yazılmışdır: “1262-ci ildə müqəddəs yerlərə gedərkən bu qiymətli Quran təfsirini əziz və hörmətli dostum Hüseynə bəxş edirəm. Abbasqulu ibn Mirzə Məhəmməd xan Bakuvidən yadigar”. Yazılan mətn Əlyazmalar İnstitutunun elmi işçisi Arif Ramazanov tərəfindən oxunmuşdur.

Abbasqulu ağa Bakıxanovun kitabxanasından olan kitablarda isə belə yazılmışdır: “Yaxşı kitab insan ruhu üçün bir bayramdır və bunu da Allah-təala insanlara bəxş etmişdir”.

Ziyarətə gedərkən Abbasqulu ağa İran ərazisindən keçmişdir və bundan xəbər tutan Mirzə Məhəmməd şah Qacar onu öz yanına dəvət edərək təntənəli şəkildə qəbul etmiş və 2-ci dərəcəli Şiri Xurşid ordeni ilə təltif etmişdir. Bu yüksək ordenin şah tərəfindən verilməsi Abbasqulu ağanın şəxsiyyətinə və nicabətinə göstərilən hörmət idi.

Bakıxanov çox maraqlı, tarixi hadisələrlə dolğun və çətin bir həyat yolu keçmişdir. Onun əsərləri Azərbaycan xalqının tarixi və ədəbi xəzinəsinə daxil olmuşdur.

***Gülnar ƏLİYEVA,***
***“İçərişəhər” Muzey Mərkəzinin müşaviri***

Azərbaycan.- 2020.- 12 yanvar.- S.7.